# Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Son illərdə Azərbaycan Respublikasında iqtisadiyyatın sürətli inkişafı digər sahələr kimi qeyri-neft sektorunda da köklü dəyişikliklərə səbəb olmuşdur. Respublikada pambıqçılıq, taxılçılıq və digər kənd təsərrüfatı bitkiləri və heyvandarlıq məhsulları istehsalında daha böyük artıma nail olunması məqsədi ilə əkin sahələrinin suvarma suyu ilə təminatının daha da yaxşılaşdırılması və əhalinin içməli suya tələbatının ödənilməsi üçün mühüm tədbirlər həyata keçirilmiş, su anbarları, magistral kanallar və digər su təsərrüfatı obyektləri tikilib istifadəyə verilmişdir.

Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan ayrılmış vəsait hesabına 2013–2016-cı illərdə ölkənin 40 şəhər və rayonu üzrə əhalisi 1,3 milyon nəfərə yaxın olan 560 yaşayış məntəqəsində əkin sahələrinin, əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təmin edilməsi və əhalinin içməli suya tələbatının ödənilməsi üçün 957 subartezian quyusu qazılmışdır.

Bu istiqamətdə işlərin davam etdirilməsinin vacibliyini və vətəndaşların müraciətlərini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Əhalisi 375 min nəfərə yaxın olan 36 şəhər və rayonun 136 yaşayış məntəqəsində (siyahı əlavə edilir) əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün 150 subartezian quyusunun layihələndirilməsi və qazılması məqsədi ilə Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə 10,5 milyon (on milyon beş yüz min) manat vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 5 iyun 2017-ci il
№ 2962

Azərbaycan Respublikası Prezidentinin
2017-ci il 5 iyun tarixli 2962 nömrəli Sərəncamına
**Əlavə**

## 2017-ci ildə qazılması nəzərdə tutulan subartezian quyularının yaşayış məntəqələri üzrə bölgüsünə dair

## S İ Y A H I

| Sıra №-si | Rayonun, şəhərin adı | Quyuların sayı | Yaşayış məntəqələrinin adı |
|---|---|---|---|
| 1 | Ağcabədi | 9 | Göyük |
| | | | Muğanlı |
| | | | Şahsevən |
| | | | Yuxarı Qiyaməddinli (2 ədəd) |
| | | | Bala Kəhrizli |
| | | | Taynaq |
| | | | Hindarx |
| | | | Hüsülü |
| 2 | Ağdam | 4 | Birinci Yüzbaşılı |
| | | | Mahrızlı |
| | | | Sarıcalı |
| | | | Təzəkənd |
| 3 | Ağdaş | 1 | Pirəyir |
| 4 | Ağsu | 2 | Ağalarbəyli |
| | | | İlxıçı |
| 5 | Ağstafa | 7 | Aşağı Göycəli |
| | | | Aşağı Kəsəmən |
| | | | Pirili |
| | | | Xılxına |
| | | | Poylu |

| | | | |
|---|---|---|---|
| | | | Eynallı |
| | | | Köçəsgər |
| 6 | Astara | 1 | Kijəbə qəsəbəsi |
| 7 | Balakən | 4 | Xalatala |
| | | | Sarıbulaq |
| | | | Qazma |
| | | | Qarahacılı |
| 8 | Beyləqan | 4 | Şəfəq qəsəbəsi |
| | | | Kəbirli (2 ədəd) |
| | | | Dünyamalılar |
| 9 | Bərdə | 9 | Çəmənli |
| | | | İmamqulubəyli |
| | | | Birinci Qazaxlar |
| | | | Əliyanlı (2 ədəd) |
| | | | Qaradəmirçi |
| | | | Xanərəb |
| | | | Əmirli |
| | | | Şahvəllər |
| 10 | Cəlilabad | 5 | Privolnoye (3 ədəd) |
| | | | Üçtəpə |
| | | | Təzəkənd |
| 11 | Füzuli | 5 | Horadiz şəhərinin ərazisi |
| | | | Şükürbəyli |
| | | | Alxanlı |
| | | | Aşağı Kürdmahmudlu |
| | | | Şıpartı ərazisi |
| 12 | Gəncə | 2 | Kəpəz rayonunun ərazisi (2 ədəd) |
| 13 | Goranboy | 9 | Nizami |
| | | | Xoylu |
| | | | Qaradağlı |
| | | | Bəşirli |
| | | | Xınalı (2 ədəd) |
| | | | Qarapirimli |
| | | | Nadirkənd |
| | | | Yeni yol |
| 14 | Göygöl | 4 | Xaqani |
| | | | Səmədli |
| | | | Quşqara |
| | | | Yeni Qızılca |
| 15 | Xaçmaz | 3 | Yeni Həyat qəsəbəsi |

| | | | |
|---|---|---|---|
| | | | Suxtaqalaqışlaq |
| | | | Çarxı |
| 16 | Şamaxı | 2 | Çarhan |
| | | | Göylər Dağ |
| 17 | İsmayıllı | 4 | İsmayıllı şəhərinin ərazisi (2 ədəd) |
| | | | Hacıhətəmli |
| | | | Diyallı |
| 18 | Qax | 6 | Kötüklü |
| | | | Qaradolaq (2 ədəd) |
| | | | Almalı |
| | | | Zəyəm |
| | | | Ləләpaşa |
| 19 | Qazax | 6 | Birinci Şıxlı |
| | | | Çaylı (2 ədəd) |
| | | | Alpout |
| | | | Canalı |
| | | | Hüseynbəyli |
| 20 | Qəbələ | 4 | Vəndam qəsəbəsi |
| | | | Topbağ kəndi |
| | | | Böyük Pirəli |
| | | | Yemişanlı |
| 21 | Quba | 3 | Birinci Nügədi |
| | | | Amsarqışlaq |
| | | | Küpçalqışlaq |
| 22 | Qusar | 2 | Əniqoba |
| | | | Haçatala |
| 23 | Masallı | 3 | Qəriblər |
| | | | Çaxırlı |
| | | | Köhnə Alvadı |
| 24 | Oğuz | 4 | Oğuz şəhərinin ərazisi |
| | | | Muxas |
| | | | Zərrab |
| | | | Padar |
| 25 | Samux | 5 | Samux şəhərinin ərazisi |
| | | | Alıuşağı |
| | | | Tatlı |
| | | | Zazalı |
| | | | Əhmədbəyli |
| 26 | Şəki | 7 | Şəki şəhərinin ərazisi |
| | | | Qudula |

| | | | |
|---|---|---|---|
| | | | Çapağan |
| | | | Qoxmuq |
| | | | Baltalı |
| | | | Aşağı Layısqı |
| | | | Baş Layısqı |
| 27 | Şəmkir | 7 | Şəmkir şəhərinin ərazisi (2 ədəd) |
| | | | Dəllər Cırdaxan (2 ədəd) |
| | | | Düyərli (2 ədəd) |
| | | | Yeniabad |
| 28 | Tərtər | 7 | Seydimli |
| | | | Buruc |
| | | | Ələsgərli |
| | | | Köçərli |
| | | | Yuxarı Sarıcalı |
| | | | Səhləbad |
| | | | Əskipara |
| 29 | Tovuz | 6 | Qovlar şəhərinin ərazisi (2 ədəd) |
| | | | Çilovdarlı |
| | | | Dönük Qırıqlı |
| | | | Alakol |
| | | | Əyyublu |
| 30 | Yevlax | 2 | Köyük |
| | | | Rüstəmli |
| 31 | Zaqatala | 6 | Muxax |
| | | | Yengiyan |
| | | | Yuxarı Tala |
| | | | Əliabad qəsəbəsi |
| | | | Dağlı |
| | | | Lahıc |
| 32 | Xocavənd | 1 | Muğanlı ərazisi (qış otlaqları) |
| 33 | Yardımlı | 1 | Arvana |
| 34 | Laçın (Ağcabədi rayonunun Taxta-Körpü ərazisi) | 1 | Mais oba ərazisi (Laçın qış yataqları) |
| 35 | Qobustan | 2 | Bədəlli |
| | | | Ərəbşalbaş |
| 36 | Lerik | 2 | Gürdəsər |
| | | | Boykəndil |
| | **Cəmi** | **150** | **136** |